# “Ədəbiyyatda intellektin tərəfdarıyam”

## *Firuz Mustafanın sözlərinə görə, bizdə istedadlı gənclər çox, amma fenomenlər yoxdur*

**Adətən bədii əsər onu ərsəyə gətirən qələm sahibinin öz səviyyəsinə uyğun olur. Yazıçının xarakterini də buraya əlavə etsək, onda yaşadığı cəmiyyətin içərisindən gətirdiyi böyük intriqalardan tutmuş ta xırda detallaradək təsvir etdiklərinin hamısında onun dünyaya baxışının mahiyyətini qismən də olsa görə bilərik. Amma elə yazıçılar da var ki, dünyaya yalnız öz məhəlləsindən, öz evinin həyətindən və ya öz oturduğu kürsüdən baxmır. Onlar öz hücrəsindən baxanda dünyanı əlinin içi kimi görür və gördüklərini də öz oxucularına söyləyir. Müsahibimiz - yazıçı-filosof Firuz Mustafa kimi.**

**- Firuz müəllim, həyatı maraqlı edən nədir?**

- Elə həyatın özü...

**- Yazmağa nə kömək edir?**

- Hər şeyi həyatın özü diktə eləyir. Həyatdan zövq aldığın anlar da olur, əzab çəkdiyin məqamlar da. Təbii ki, ədəbiyyat təkcə zövq üçün yaranmayıb. Yaxşı əsər yalnız qələbələrin, sevincin, insanın parlaq həyatının əksi olmur. Yaxşı əsər həm də böyük faciələrin inikasıdır.

**- Sizin yazılarınız o qədər də sadə deyil. Yəni oxucularınız yazdıqlarınızın mahiyyətini dərk etməkdən ötrü intellekt baxımından savadlı olmalıdırlar.**

- Bu “iradı” mənə dəfələrlə tutublar. Mən yazanda heç vaxt qarşıma belə bir məqsəd qoymuram ki, məxsusi olaraq hansısa bir “savadlı” qrup üçün əsər yazım. Amma hər halda, mən belə hesab edirəm ki, oxucu mütləq müəyyən savada, intellektə malik olmalıdır. Yəni onu primitiv şeylərlə aldatmaq, bayağı hadisələrin arxasınca çəkmək düzgün deyil. Yazıçı həyatın arxasınca getməməlidir, əksinə, həyat özü yazıçını izləməlidir. Bəli, mən hər bir sahədə, o cümlədən bədii ədəbiyyatda intellektin tərəfdarıyam. Adi, primitiv hadisələri ədəbiyyata gətirmək, adi məişət əhvalatlarını hətta məişətdən aşağı dil səviyyəsində belə ədəbiyyata “pərçim etmək” insanların zövqünün korlanmasından başqa bir şey deyil. Təəssüf ki, bu hal yaşlı yazıçılarımızın bir neçəsində də müşahidə edilir. Yeni yazarlar arasında isə bəsit hadisəçiliyə meyil qabarıq hiss olunur. Mən dəfələrlə demişəm, yenə deyirəm, bizdə istedadlı gənclər çoxdur, amma təəssüf ki, fenomenlər yoxdur.

**- Bəzən yazıçılar özlərinin dərk edilməməsindən gileyli olurlar, ailədən, cəmiyyətdən küsürlər...**

- Belə hallar, yəni “cəmiyyətdən küsmə” meyilləri adi insanlarda da, qeyri-adi şəxsiyyətlərdə də olur. Bəli, bu cür tiplər, personajlar ədəbiyyatda da var. Bu cür pessimizm ilk gənclik dövrü üçün daha səciyyəvidir. Axı gənclər geniş dünyaya yaxından bələd deyillər. Onlar elə bilirlər ki, axtardıqları artıqlaması ilə həyatda və ədəbiyyatda olmalıdır. Amma tədricən ədəbiyyatla və həyatla yaxından tanış olduqda görürlər ki, bu dünyada insanın yazdıqlarının heç də hamısını tapmaq mümkün deyil. Yəni həyat insanın arzu etdiyindən, görmək istədiyindən, lap elə oxuduğundan və yazdığından daha mürəkkəbdir.

Ədəbiyyatın vəzifəsi, missiyası çox genişdir. Əvvəla, əsər yazmaq istəyən şəxs mütləq daxilən azad olmalıdır. Ola bilsin ki, kimsə iqtisadi cəhətdən azad deyil, amma ruhən, mənən azad olmalıdır. Əgər yaradıcı adamda düşüncə azadlığı yoxdursa, onun yazdıqları heç kəsə lazım deyil. Bir də ki, böyük ədəbiyyatın mövcudluğu əksər hallarda müəyyən zaman keçəndən sonra təsdiq olunur. Əlbəttə, müasir yazıçıların əsərləri heç də şübhə altına alınmır. Belə hesab edirəm ki, bəzən çox böyük yazıçılar zamanında dünyaya çıxmaq imkanlarından məhrum olurlar. Axı bunun üçün tərcümənin, daha doğrusu, tərcüməçinin də xüsusi rolu var. Amma gec-tez tarix hər şeyi öz yoluna qoyur.

**- Sovetlər dövründə fərqli ədəbi cərəyanlar mövcud idi: sosializm realizmi, tənqidi realizm, romantizm... Hal-hazırda isə dəyişikliklər çoxdur. Hansı zamanda yazıb-yaratmaq daha rahatdır?**

- Mənim sovet dövründə də, postsovet dövründə də kitablarım çap olunub. Əvvəla, əsl yazıçı əsər üzərində işləyərkən heç vaxt fikirləşmir ki, hansı ədəbi cərəyan əsasında yazacaq. Düzdür, sovetlər dönəmində əksər yazıçıların beynində senzura hakim kəsilmişdi və bundan qurtulmağın necə çətin olduğu onların yaradıcılığında özünü aydın göstərirdi. Amma qəlbən, ruhən özünü azad hiss edənlər də vardı. Mən fikrimə illüstrasiya üçün o dövrdə eyni epoxada yaşamış iki böyük yazıçını- Fadeyevi və Şoloxovu misal gətirə bilərəm. Fadeyevin yaradıcılığı tamamilə sosializm realizmi əsasında idi. Digər böyük yazıçı, yəni Şoloxov isə realizm əsasında yazıb-yaradırdı. Hər ikisində realizm var. Onlarla bir dövrdə yaşayıb tənqidi realizm əsasında yazan sənətkarlar da olub. Bu da başqa söhbətin mövzusudur... Dediyim odur ki, söhbət ciddi yaradıcılıq nümunəsindən gedirsə, bu cür əsərlərin müəllifləri heç vaxt qarşılarına məqsəd qoymurlar ki, mən hansısa bir cərəyan əsasında roman yazmalıyam. Bu, heç bir normal adamın düşüncəsinə uyğun gəlmir. Yazıçı ürəyinin hökmü ilə yazmalıdır.

**- Müasir ədəbi cərəyanlar da mövcuddur...**

- Bəli, belə cərəyanlar var. Məsələn, modernizm, postmodernizm, strukturalizm... Bunların arasında postmodernizm daha populyardır. Hətta mən hərdən neopostmodernizmin də, yəni postmodernizmin sonrakı mümkün variantının da olduğunu deyirəm. Dediyim odur ki, bütün bu cərəyanların mövcud olduğunu inkar etmirəm. Bunlar var və bütün bu kanonları ədəbiyyatşünaslar, esseistlər, filosoflar, estetiklər formulə edirlər. Ortada olan əsərlərin fəlsəfi mahiyyəti haqda onlar nəticə çıxarırlar. Onu qeyd edim ki, postmodernizm yalnız ədəbiyyatda deyil, bədii sənətin başqa sahələrində, habelə rəssamlıqda, heykəltəraşlıqda, fəlsəfədə də özünü büruzə verir və az qala hər bir sahədə bu cərəyanın özünün nümayəndələri var. Lakin mən inanmıram ki, ədəbiyyatşünasların “postmodernist” elan etdiyi hansısa sənətkar özünü “postmodernist” elan etsin. Bəli, bilirəm, bu cərəyanın özünəməxsus arqumentləri var. Bu cərəyan ekzistensializm fəlsəfi cərəyanının sonrakı mərhələdə davamı, varisi kimi meydana çıxdı. Burada insanın faciəsi, tənhalığı qabarıq şəkildə göstərilir.

**- Bizdə bu cərəyana münasibət necədir?**

- Bizdə əksərən bu cərəyanın nümayəndələrini, bir növ ortada olanları yamsılayırlar... Bu cərəyanın əsas paradiqmalarından biri də “hədsiz-hüdudsuz demokratizmdir”. Amma elə ədəbiyyat onsuz da daim demokratik olmalıdır və olub da.

Postmodernizm pafosu, təmtəraqlı təsvir və tərifləri qəbul etmir. Bu cərəyanın tərəfdarları həyat hadisələrinə daim ironiya ilə yanaşırlar. Əlbəttə, bu cərəyanın çox görkəmli nümayəndələri olub və yenə də var. Olanı inkar etmək qeyri-mümkündür. Amma mən kiminsə kimisə kor-koranə yamsılamağının əleyhinəyəm. Bizdə öz zəif əsərlərini “postmodernist” nümunə kimi təqdim edən çoxlu primitiv düşüncəli yazarlar var. Belələrinin bu ədəbi cərəyanın estetik mahiyyəti haqda ibtidai təsəvvürü belə yoxdur.

**- Firuz müəllim, Siz həm də filosofsunuz. Bəs ictimai formasiyaların ədəbiyyata təsiri necədir?**

- Fərdlər cəmiyyətdən, cəmiyyət də müəyyən mənada ictimai, iqtisadi, siyasi formasiyalardan asılıdır. Bu qarşılıqlı, möhkəm, dialektik əlaqə həyata da, ədəbiyyata da çox mühüm təsir göstərir. Ona görə də şəxsiyyət və cəmiyyət, şəxsiyyət və tarix anlayışları var. Bunlar bir-birinə qarşılıqlı şəkildə təsir edir.

**- Hətta texnologiyaların inkişafı da?**

- Bəli, hər cür inkişaf insana təsir edir; bu və ya digər şəkildə. Bu təsirlər yaxşı da ola bilər, pis də.

**- Sizin bir çox uğurlu dram əsərləriniz var. Onlarla əsərinizə uğurlu verilib. Dramaturgiya Sizin üçün nədir?**

- Dramaturgiya kifayət qədər spesifik janrdır. Təkcə bizdə deyil, bütün dünyada dramaturqların sayı azdır. Bu, həm ədəbi janrdır, həm də bir incəsənət janrıdır. Dram əsəri əsasən teatr üçün yazılır. Teatr yoxsa, dramaturgiya da yox kimidir. Amma M.F.Axundov teatrın olmadığı zaman da gözəl dram əsərləri yazıb. Elə ölkələr də var ki, orada dramaturq var, ancaq teatr yoxdur. Açıq demək lazımdır, bu janr digər janrlar kimi kütləvi şəkildə oxunmur. Ya səhnədə oynanılır, ya da televiziya tamaşası olaraq lentə alınır. Ümumiyyətlə, dramaturgiya unikal bir janrdır, görünür, bu janra gəlməyin çətinlikləri var. Mən ədəbi janrlar barədə düşünərkən belə bir qənaətə gəlmişəm ki, şeir yaradıcılığın daha çox milli təzahür formasıdır. Dramaturgiya nisbətən kosmopolitik janrdır. Bütün janrlar içərisində nəsrin imkanları daha genişdir. Bu gün ağıllı nəsr əsərləri dünyaya meydan oxuyur.

Nəhayət, qısaca olaraq bir məsələyə də münasibət bildirmək istəyirəm: əsl ədəbiyyat, böyük ədəbiyyat get-gedə elmiləşir. Yəni elmsiz, savadsız adamın bu gün qeyri-adi əsər yazması mümkünsüzdür.

**- Bizdə doğrudanmı kitab oxuyan yoxdur, gənclərin əksəriyyəti kompüter və ya telefonla oyun oynamaqla məşğuldur?**

- Yox, oxucu var, amma sayı azdır. Bu azlıq, qıtlıq isə obyektiv və subyektiv amillərlə bağlıdır. Səbəblər çoxdur və müxtəlifdir. Həyatın özünün diktəsilə bağlı səbəblər var, məsələn, bəziləri fikirləşir ki, oxuyub neyləyəcəyəm, bunun mənə nə xeyri var? BeləIəri hər şeydə “xeyir” axtarırlar. Bir qismi də deyir ki, mən kompüter vasitəsilə əsərlərlə tanış oluram. Elələri də var ki, deyir, əsər haqda xülasəni oxudum, bu, mənim bəsimdir. Bir başqası deyir ki, dostum mənə əsərin məzmununu danışdı və bu, kifayətdir.

Ümumiyyətlə, 30 il bundan əvvəlki vəziyyətlə müqayisədə oxucu azdır.

**- Bəlkə oxucular “ayılıblar”. O zaman əsərin nikbin sonluğuna, obrazların taleyinə inam vardı. Oxucu həyatın çətin məqamında təsəlli ala bilirdi. İndi real həyatla bədii obrazlar arasında kəskin təzad yaşanır.**

- Bu da mümkündür. Əvvəllər gələcəyə nikbin ruh vardı. Bizdə bu gün bəziləri belə düşünür ki, çox oxumaq zərərdir. Amma səhv edirlər. Çoxu anlamır ki, dünyanın “iqtisadi” dərkindən başqa bir estetik dərki, bir bədii dərki də var. Düşüncəsi olmayan adamlar hansı böyük işləri görə bilərlər? Lap elə riyaziyyatın, elmi dərkin özündə belə, bədii dərketmənin rolu var. Bunun ən yaxşı klassik nümunəsini biz Eynşteynin məşhur fikrində görürük. O deyirdi ki, Dostoyevskini oxumasaydım, fizikanı sevməzdim, nisbilik nəzəriyyəsini kəşf edə bilməzdim. Ədəbiyyat yalnız həyatı yaxşılaşdırmaq və ya pisləşdirmək üçün deyil, ədəbiyyat dünyaya bir obrazlı baxışdır. O, insanın düşüncəsini nizama salır, insanın təfəkkürünü formalaşdırır, insanın heç olmazsa, daxili və xarici nitqini cilalayır.

**- Yaradıcılıq planlarınız barədə nə deyə bilərsiniz?**

- Heç nə. Mən bu gün sabah haqqında danışmağa çətinlik çəkirəm. Təkcə hər günün deyil, hər anın öz hökmü var.



**Zeynəb Əliqızı**